Əliyeva G.S.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2022.66.16-28
UOT: 34:343.6

# Qan və onun komponentlərinin donorluğu hüquqi aspektdə

**Xülasə**: Qan və onun komponentləri qədim dövrlərdən məlum olan vacib müalicəvi vasitələrdən biridir. Müasir zamanda da tibbin bir çox sahələrində qan və onun komponentləri əvəzolunmaz müalicə vasitəsi kimi geniş istifadə olunur.

Məlumdur ki, Azərbaycanda qan donorluğu "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında" qanunla nizamlanır. Bu qanun Azərbaycan Respublikası Prezidentinin 3 may 2005-ci il tarixdə № 904-IIQ nömrəli Fərmanı ilə imzalanmışdır. Bu Qanun qanın, qan komponentlərinin donorluğunun inkişafı ilə əlaqədar münasibətləri tənzimləyir, qan xidmətinin təşkilinin əsaslarını müəyyən edir.

Bununla yanaşı, "Qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Dövlət Proqramı" (2006-2010-cu illər) Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 18 yanvar 2006-cı il tarixli 16 nömrəli Qərarı ilə, "2011-2015-ci illər üçün qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Tədbirlər Proqramı" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 13 dekabr tarixli 233 nömrəli Qərarı ilə, "2016-2020-ci illər üçün qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Tədbirlər Proqramı" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 yanvar 2016-cı il 22 nömrəli Qərarı ilə təsdiq edilmişdir. Eyni zamanda qanköçürmə sahəsində fəaliyyəti nizamlayan bir çox normativ sənədlər də mövcuddur. Beləliklə, Azərbaycan Respublikasında donorluq təsdiq edilmiş əsasnamə və təlimata əsasən inkişaf etdirilir.

Tədqiqat işində qan və onun komponentlərinin donorluğu hüquqi aspektdə araşdırılır.Eyni zamanda, müqayisəli tədqiqat metodlarından istifadə etməklə qan və onun komponentlərinin donorluğu ilə bağlı ayrı-ayrı dövlətlərin qanunvericiliyi və təcrübəsi təhlil edilir, müvafiq normaların müsbət və mənfi cəhətləri müəyyən edilir. Aparılmış tədqiqat həm də daxili cinayət qanunvericiliyinin təkmilləşdirilməsinə xidmət edir.

Tədqiqatda Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə yeni maddələrin əlavə edilməsi, habelə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 137-ci maddəsinə əlavə və dəyişikliklərin edilməsi və bəzi əməllərin cinayət tərkibinin qiymətləndirilməsi ilə bağlı təklif və tövsiyələr irəli sürülmüşdür. Yəni CM-nin 137-ci maddəsinin sanksiyasında və 137.3-cü maddəsinin dispozisiyasında dəyişiklik edilməsini və CM-nə 137-1 və 137-2-ci maddələrinin əlavə edilməsi təklif edilmişdir.

**Açar sözlər**: qan donorluğu; qan xidməti; qan komponentləri; qan transfuziyası; resipiyent; donorun hüquqları; hüquqi aspect; qanunvericilik aktları; transplantasiya; donorluğa məcburetmə.

İnsan sağlamlığının qorunması müasir dövrdə hər bir dövlətin və cəmiyyətin başlıca məqsədlərindən biridir. Bu mənada Azərbaycan Respublikası da istisna təşkil etmir. İlk növbədə

♦ **Əliyeva Günay Səhhət qızı -** AMEA Hüquq və İnsan Haqları İnstitutunun Cinayət hüququ və cinayət prosesi şöbəsinin elmi işçisi (Azərbaycan). E-mail: gunay-aliyeva-2019@mail.ru

qeyd edək ki, Azərbaycan Respublikasının Konstitusiyası ilə ölkəmizdə hər bir insanın sağlamlığı, təhlükəsiz yaşaması dövlət tərəfindən müdafiə altına alınır. Azərbaycan Respublikasının Konstitusiyasının 41-ci maddəsinə əsasən hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır. Ölkəmizdə mövcud olan hüquq sistemi də müvafiq sahələr üzrə qeyd etdiyimiz konstitusion prinsipə uyğun olaraq, hər bir şəxsin sağlamlığını və sağlam yaşamasını mühafizə edir və müvafiq hüquqi vasitələrlə qoruyur.

Azərbaycan dövlətçiliyi tarixində şəxsiyyətin təhlükəsizliyi münasibətləri cinayət-hüquq normaları ilə qorunmuş və mühafizə edilmişdir. Bu mühafizə tarixi dövrlərdən, cəmiyyətdə mövcud olan sosial-siyasi amillərdən asılı olaraq müxtəlif forma, üsul və məzmunda həyata keçirilməsinə baxmayaraq, məqsəd həmişə insanların həyat və sağlamlığının müxtəlif cinayət xarakterli təsirlərdən qorunmasında ifadə olunmuşdur.

Bildiyimiz kimi qan və onun komponentləri qədim dövrlərdən məlum olan vacib müalicəvi vasitələrdən biridir. Müasir zamanda da tibbin bir çox sahələrində qan və onun komponentləri əvəzolunmaz müalicə vasitəsi kimi geniş istifadə olunur.

Qanköçürmə, müxtəlif xəstəliklərin müalicəsi üçün çox güclü bir üsul olmaqla yanaşı, bir sıra patoloji vəziyyətlərdə (qanaxma, anemiya şok, iri cərrahi əməliyyatlar və s.) xəstənin həyatının xilas olunması üçün yeganə və hələlik əvəzolunmaz bir vasitədir. Qan, qan komponentləri və preparatlarından tək cərrahlar, travmatoloqlar, mama-ginekoloqlar deyil, həmçinin terapevtlər, pediatrlar, infeksionistlər və digər ixtisas həkimləri də geniş istifadə edirlər.

Göründüyü kimi qan, qan komponentləri və preparatları olmadan cərrahiyyə, reanimasiya, hematoloji, mamalıq, onkologiya, travmatologiya və s. kimi ixtisaslaşmış tibbi yardım növlərinin fəaliyyətini uğurla həyata keçirmək mümkün deyil. Fövqaladə vəziyyət və müharibə zamanı yaralıların və ziyançəkənlərin kütləvi qəbulu ilə əlaqədar qan xidmətinin rolu daha da artmışdır.

Qanköçürmənin tarixi kökləri qədim əsrlərə gedib çıxır. Qanın müalicəvi məqsədlə istifadəsi haqqında ilk fikirlər eramızdan çox-çox öncələrdə meydana çıxmışdır və hələ o dövrdə insanlar qanın insan orqanizminin fəaliyyəti üçün əhəmiyyətini qiymətləndirirdilər. Qədim zamanlarda qanı həyat qüvvəsi mənbəyi hesab edirdilər və onun vasitəsilə ağır xəstəliklərdən xilas olmağın yollarını axtarırdılar. Əhəmiyyətli dərəcədə qanitirmənin ölümə səbəb olması, müharibələr və təbii fəlakətlər zamanı dəfələrlə sübut olunurdu. Bütün bunlar bir orqanizmdən digərinə qan köçürülməsi ideyasının yaranmasına səbəb oldu.

Məlumdur ki, Sovet dövründə qan xidmətinin fəaliyyəti müxtəlif zamanlarda dərc edilmiş çoxsaylı əmr, qayda və təlimatlarla tənzim edilirdi. Müstəqillik qazanılandan sonra qan xidmətinin milli hüquqi-normativ bazasının yaradılması zərurəti ortaya çıxdı. Bu məqsədlə Səhiyyə Nazirliyinin tapşırığı və rəhbərliyi ilə Hematologiya və Transfuziologiya İnstitutu lazımi sənədlərin layihəsini hazırladı. 1996-cı ildə Milli Məclis “Qan və onun komponentlərinin donorluğu haqqında Azərbaycan Respublikası qanunu”nu qəbul etdi. Bu Qanun qan və onun kompo¬nent¬ləri¬nin donorluğunun inkişafı ilə əlaqədar münasibətləri, qan və onun komponentlərinin donorluğunun təşkilində kompleks tədbirlərin təmin edilməsini tənzim edir, qan və onun komponentləri donorlarının statusunun əsasları-nı müəyyən edirdi.

2004-cü il iyun ayının 10-da Milli Məclisdə “Qanköçürmə xidməti ilə bağlı Azərbaycan qanunvericiliyinin monitorinqi və qanunyaradıcılığının perspektivləri” mövzusunda seminar keçirilmiş və bu seminarda yeni qanunun qəbul edilməsi haqqında tutarlı arqumentlər səsləndirilmişdir [10, s. 143-145].

Qeyd edək ki, illər ərzində ölkəmizin qan xidmətində böyük dəyişikliklər baş vermişdir. Nəticədə, “Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu 2005-ci ildə Milli Məclis tərəfindən qəbul edilmiş və Azərbaycan Respublikası Prezidenti tərəfindən 3 may 2005-ci il tarixində imzalanmışdır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq, transfuziologiyada əhəmiyyətli tənəzzül müşahidə olundu ki, nəticədə müalicə müəssisələrinin təhlükəsiz qan və qan komponentləriylə təmin olunması mümkün olmadı. BMT-nin İnkişaf Proqramı respublikaya köməyə gəldi və Norveç dövlətinin maddi köməyi sayəsində “Azərbaycanda qan xidmətinin reabilitasiyası” layihəsi həyata keçirildi.

“Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında” qanun qəbul olunduqdan sonra, 2006-cı ildə Nazirlər Kabineti – Qanun, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Dövlər Proqramını təsdiqlədi. O vaxtan etibarən qan xidmətində daimi mütərəqqi inkişaf qeyd olunur ki, bu da ölkənin müalicə müəssisələrinin təhlükəsiz qan komponentləriylə tam həcmdə təmin olunmasına imkan yaratdı [10, s, 8-9].

Hazırda qan və onun komponentləeinin donorluğu ilə bağlı Azərbaycan Respublikasının Prezidentinin Fərmanları, Azərbaycan Respublikasının Qanunları, Dövlət Proqramları, Səhiyyə Nazirliyinin əmrləri, qanköçürmə sahəsində fəaliyyəti nizamlayan normativ sənədlər mövcuddur.

Bildiyimiz kimi, “Qan və onun komponentlərinin donorluğu haqqında” Azərbaycan Respublikasının 1996-cı il 26 mart tarixli 49-IQ nömrəli qanunu qəbul edilmişdir. Bu Qanun qan və onun komponentlərinin donorluğunun inkişafı ilə əlaqədar münasibətləri, qan və onun komponentlərinin donorluğunun təşkilində kompleks tədbirlərin təmin edilməsini tənzim edir, qan və onun komponentləri donorlarının statusunun əsaslarını müəyyən edirdi [4].

Yuxarıda qeyd edildiyi kimi “Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 3 may 2005-ci il tarixdə № 904-IIQ saylı Fərmanı imzalanmışdır. Bu Qanun qüvvəyə mindiyi gündən “Qan və onun komponentlərinin donorluğu haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvədən düşmüş hesab edildi.

Bu Qanun qanın, qan komponentlərinin donorluğunun inkişafı ilə əlaqədar münasibətləri tənzimləyir, qan xidmətinin təşkilinin əsaslarını müəyyən edir [4].

Qanın, qan komponentlərinin donorluğu və qan xidməti barədə qanunvericilik aktlarına dair Bələdçi qaydalarında qeyd edilir ki, bu Qanun qanın, qan komponentlərinin donorluğunun inkişafı ilə əlaqədar münasibətləri tənzimləyir, qan xidmətinin təşkilinin əsaslarını müəyyən edir [5].

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 18 yanvar tarixli 16 nömrəli qərarı ilə Qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Dövlət Proqramı təsdiq edilmişdir.

“Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 18 iyul tarixli, 263 nömrəli Fərmanına əsasən hazırlanmış “Qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Dövlət Proqramı” göstərilən problemlərin aradan qaldırılmasına geniş imkanlar yaradır.

Daha sonra,“Qanın, qan komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsi Qaydası”nın və “Qanın, qan komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsi ilə məşğul olan qan xidməti müəssisələrinin (qan banklarının) Siyahısı” [7] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 28 yanvar tarixli 26 nömrəli Qərarı ilə təsdiq edilmişdir; “Qanın,

qan komponentlərinin və onlardan hazırlanan preparatların təhlükəsizlik və keyfiyyət göstəricilərinin Siyahısı" və "Qanın, qan komponentlərinin və onlardan hazırlanan preparatların təhlükəsizlik və keyfiyyət göstəricilərinə əməl olunmasına nəzarətin həyata keçirilməsi Qaydası" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 6 fevral tarixli 34 nömrəli Qərarı ilə təsdiq edilmişdir; "Qanın, qan komponentlərinin pullu donorluğunun Qaydası və Şərtləri" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 13 fevral tarixli 43 nömrəli Qərarı ilə təsdiq edilmişdir. "Təbii fəlakət, qəza və digər fövqəladə vəziyyətlər zamanı qanın, qan komponentlərinin donorluğunun təşkili Qaydası" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 16 fevral tarixli 50 nömrəli Qərarı ilə təsdiq edilmişdir; "Donorluq funksiyasını məhdudlaşdıran xəstəliklərin Siyahısı" və "Donorun tibbi müayinədən keçməsi, qanın, qan komponentlərinin götürülməsi Qaydası" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 6 mart tarixli 61 nömrəli Qərarı ilə təsdiq edilmişdir; "Qan xidməti müəssisələrində (qan banklarında) qanın, qan komponentlərinin preparatlarının və konservləşdirici məhlulların yoxlanması Qaydası" 2006-cı il 31 mart tarixli 92 nömrəli Qərarı ilə təsdiq edilmişdir; "Qanın, qan komponentlərinin və onlardan hazırlanan preparatların xarici təşkilatlarla mübadilə edilməsi və təcili humanitar yardım göstərilməsi üçün Azərbaycan Respublikasından kənara aparılması Qaydaları" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 22 aprel tarixli 113 nömrəli Qərarı ilə təsdiq edilmişdir; "Qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Dövlət Proqramı"nın həyata keçirilməsi, qan xidmətinin və transfuzioloji yardımın təkmilləşdirilməsi barədə" Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin 2006-cı il 10 iyun tarixli 112 nömrəli Əmri ilə təsdiq edilmişdir; "Azərbaycan Respublikası Səhiyyə Nazirliyi nəzdində posttransfuzion fəsadların araşdırılması üzrə Komissiya haqqında əsasnamə" Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2006-cı il 10 iyul tarixli 112 nömrəli əmri ilə təsdiq edilmişdir; "Posttransfuzion fəsadların baş verməsi zamanı zəruri tədbirlərin təşkil edilməsinə dair təlimat" Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2006-cı il 10 iyul tarixli 112 nömrəli əmri ilə təsdiq edilmişdir; "Müalicə-profilaktika müəssisəsinin qan bankı haqqında əsasnamə" Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2006-cı il 10 iyul tarixli 112 nömrəli əmri ilə təsdiq edilmişdir; "Müalicə-profilaktika müəssisinin transfuzioloji yardım kabineti haqqında əsasnamə" Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2006-cı il 10 iyul tarixli 112 nömrəli əmri ilə təsdiq edilmişdir; "Qan xidməti müəssisəsinin inspeksiyası (yoxlanılması) qaydası" Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2006-cı il 10 iyul tarixli 112 nömrəli əmri ilə təsdiq edilmişdir; "Donorun sorğu vərəqəsi" Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 2006-cı il 10 iyul tarixli 112 nömrəli əmri ilə təsdiq edilmişdir.

Məlumdur ki, Azərbaycanda qan donorluğu "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında" qanunla nizamlanır. Bununla yanaşı, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 18 yanvar 2006-cı il tarixli 16 nömrəli Qərarı ilə "Qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Dövlət Proqramı" (2006-2010-cu illər) təsdiq edilmişdir. Həmçinin "2011-2015-ci illər üçün qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Tədbirlər Proqramı" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 13 dekabr tarixli 233 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

Hazırda 3-cü Dövlət Proqramı yerinə yetirilir. Bu proqram "2016-2020-ci illər üçün qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Tədbirlər Proqramı" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 yanvar 2016-cı il 22 nömrəli Qərarı ilə təsdiq edilmişdir. Dövlət proqramları çərçivəsində qan xidməti müəssisələrinin lazımi avadanlıqlarla, qan tədarükü üçün konteynerlərlə, qan testlərinin aparılmasına lazım olan reaktivlərlə təmin edilməsi

məsələləri həll edilmişdir, qan xidməti şəbəkəsi və onun fəaliyyəti modernləşdirilmiş və optimallaşdırılmışdır.

Son zamanlar bütün dünyada tibb müəssisələrinin qan komponentlərinə və qan preparatlarına olan ehtiyacları davamlı olaraq artmaqdadır.

Bu zərurəti nəzərə alaraq "Qanın, qan komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsi Qaydası"nın və "Qanın, qan komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsi ilə məşğul olan qan xidməti müəssisələrinin (qan banklarının) Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 28 yanvar tarixli 26 nömrəli Qərarında dəyişiklik edilməsi barədə Nazirlər Kabinetinin 10 oktyabr 2020-ci il tarixli 384 nömrəli Qərar Baş Nazir tərəfindən imzalanmışdır.

Bu qərara əsasən Səhiyyə Nazirliyinin "Bakı Sağlamlıq Mərkəzi" publik hüquqi şəxsi tibb müəssisəsində qanköçürmə şöbəsi yaradılmışdır [8].

Bütün dünyada qan donorluğu daimi diqqət tələb edən ən mühüm problemlərdən biridir.

Hemokomponent terapiyanın ənənəvi tətbiqi ilə yanaşı, son illərdə cərrahi, mamalıq, pediatrik, onkoloji və hematoloji praktikada hematopoetik kök hüceyrə transplantasiyası (HSCT) kimi yüksək texnologiyalı tibbi üsullar üçün xüsusi seçilmiş qan komponentlərinin təmin edilməsinə artan ehtiyac var. Bu üsullar getdikcə daha çox tibb praktikasına daxil edilir ki, bu da donor qanına ehtiyacın artması və nəticədə donor kadrlarına ehtiyacın artması ilə əlaqələndirilir.

Hematopoetik kök hüceyrələrin transplantasiyası ən çox qan donorluğu məsələləri ilə bağlıdır.

Son illərdə qanla ötürülən infeksiyaların kəskin artması ilə bağlı yeni çətinliklər də yaranıb: hepatit B və C, QİÇS, sifilis.

Məlumdur ki, qan donorlarının ölkə əhalisi arasında xəstəliyin yayılmasına mütənasib olaraq yoluxucu agentlərlə yoluxma riski vardır, ona görə də qanla ötürülən infeksiyaların markerlərinin aşkarlanması dinamikasının baş verməsinin öyrənilməsi və təhlili mühüm əhəmiyyət kəsb edir [12].

Qan donorluğu yüksək keyfiyyətli müasir tibbin inkişafına, xəstələrin həyat və sağlamlığının qorunmasına təsir göstərir.

Rusiya Federasiyasının 20 iyul 2012-ci il tarixli 125-FZ nömrəli "Qan və onun komponentlərinin donorluğu" Federal Qanunu, habelə Rusiya Federasiyasının Əmək Məcəlləsi donorlar üçün təminatlar və kompensasiyalar nəzərdə tutur. Qanın və (və ya) onun komponentlərinin donorluğu, yəni donor funksiyasının həyata keçirilməsi "Donorluq haqqında" Qanunla tənzimlənir. Rusiya dövlət donorun hüquqlarının qorunmasına və sağlamlığının qorunmasına, konstitusiya baxımından əhəmiyyətli məqsədlərə uyğun gələn sağlamlığın bərpası və saxlanması ilə bağlı müavinətlərə zəmanət verir və mülkiyyət növündən asılı olmayaraq həm dövlətin, həm də təşkilatların donorları qarşısında öhdəliklərini əvvəlcədən müəyyən edir [14].

Onu da qeyd edək ki, Azərbaycan Respublikasında insan orqanlarının və ya toxumalarının transplantasiyası məsələləri "Əhalinin sağlamlığının qorunması haqqında" 1997-ci il tarixli və "İnsan orqan və ya toxumalarının transplantasiyası haqqında" 1999-cu il tarixli qanunlar ilə tənzimlənir. Müəyyən qanunlarla yanaşı, Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən 17 noyabr 2011-ci ildə bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında qərar qəbul edilmişdir. Bu qərarda orqan transplantasiyası ilə bağlı çoxsaylı qaydalar təsdiq edilib.

İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında 28 oktyabr 1999-cu il AR qanunun 9-cu maddəsinə görə, Şəxs sağlığında donorluğa yazılı razılığını bildirərsə, ölümündən sonra transplantasiya məqsədi ilə onun orqan və (və ya) toxumalarından istifadə oluna bilər. Şəxs bu məsələyə münasibətini bildirməyibsə, ölümündən sonra yaxın qohumlarının və ya qanuni

nümayəndələrinin icazəsi ilə onun orqan və (və ya) toxumalarının götürülməsinə yol verilir. Şəxs sağlığında donorluqdan yazılı şəkildə imtina edibsə, ölümündən sonra ondan transplantasiya məqsədi ilə orqan və (və ya) toxumaların götürülməsinə yol verilmir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 17 noyabr tarixli 187 nömrəli qərarı ilə təsdiq edilmişdir 3 nömrəli əlavədə Transplantasiya üçün insan orqan və (və ya) toxumalarının götürülməsi, hazırlanması (konservasiyası) və saxlanması Qaydalarının 5-ci bəndinə əsasən, meyitdən transplantasiya məqsədi ilə orqan və (və ya) toxumaların götürülməsinə qanunvericiliyin tələbləri gözlənilməklə, həkim konsiliumu tərəfindən bioloji ölümün baş verməsini və baş-beyin fəaliyyətinin tam dayanmasını (beyin ölümü) təsdiq edən inkaredilməz faktın olmasından sonra, tibb müəssisəsinin baş həkimi tərəfindən icazə verilir. Meyitdən orqan transplantasiyası məsələsində əsas problem beyin ölümü diaqnozunun qoyulması ilə bağlıdır. Məsələnin həllinə nail olmaq üçün ilk növbədə beyin ölümünün kriteriyaları mütləq müəyyənləşdirilməlidir.

Həyatın sonu cinayət-hüquqi mənada patoloji ölüm anı hesab olunur. Ölüm ürəyin döyünməsinin və tənəffüsün dayandığı, mərkəzi sinir sisteminin funksiyasının itdiyi andan baş verir. Həmin andan etibarən insan ölmüş hesab edilir. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 39-cu maddəsinə görə, insanın ölüm anını tibb işçisi (həkim, feldşer) təsdiq edir [3, s. 268].

Əvvəllər ölüm anının başlanğıcı insanda ürək döyüntüsünün və tənəffüsün dayanması anından sayılırdı. Hazırda isə ürəyin döyünməsi həyatın mövcudluğunu təsdiq edən əsas dəlil sayılmır. İnsanın mərkəzi beyin sistemində üzvi dəyişikliyin baş verməsi isə mübahisəsiz olaraq həyatın sonu kimi qəbul edilir. D.İ.Marçenkonun fikrincə yuxarıda sadalanan əlamətlər mövcud olduqda və bundan 30 dəqiqə keçdikdən sonra bioloji ölümün baş verdiyi qeyd edilir [13, s. 22].

İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında Azərbaycan Respublikasinin 20 oktyabr 2020-ci il 189-VIQ nömrəli Qanunu təsdiq edilmişdir. Bu Qanun 2022-ci il yanvarın 1-dən qüvvəyə minmişdir. Bu Qanun qüvvəyə mindiyi gündən "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" Azərbaycan Respublikasının 1999-cu il 28 oktyabr tarixli 726-IQ nömrəli Qanunu ləğv edilmişdir [6].

Azərbaycan Respublikasının CM-nin 137-ci maddəsində insan orqanlarının və ya toxumalarının alqı-satqısı və onların transplantasiya məqsədi ilə götürülməsinə məcbur etmə cinayəti təsbit olunmuşdur. Bu cinayətin ictimai təhlükəliliyi insan sağlamlığı üçün mühüm əhəmiyyət kəsb edən orqan və (və ya) toxumaların tamah motivi ilə alqı-satqı obyektinə çevrilməsində ifadə olunur. Qeyd edilən cinayətin obyekti insanın sağlamlığıdır.

Onu da qeyd edək ki, Azərbaycan SSR Cinayət Məcəlləsinin (1960) 115-3-cü maddəsinə əsasən tibbi göstərişlər olmadan transplantasiya məqsədilə insan toxumalarının və orqanlarının götürülməsi və ya götürülməsinə və ya götürülməsinə insanı məcbur etmə – həkimlik fəaliyyəti ilə məşğul olma qadağan edilməklə və ya edilməməklə beş ilədək azadlıqdan məhrum etmə cəzalandırılırdı [9, s. 691].

Azərbaycan Respublikası CM-nin 137-ci maddəsində təsbit olunan cinayət əməlinin Rusiya Federasiyasının 13 iyun 1996-ci ildən qüvvədə olan CM-nin "İnsan orqanlarının və toxumalarının transplantasiya məqsədi ilə götürülməsinə məcbur etmə" adlanan 120-ci maddəsi, Ukrayna Respublikasının 5 aprel 2001-ci ildən qüvvədə olan CM-nin "İnsan orqanlarının və ya toxumalarının transplantasiyasının qanunla müəyyən edilmiş qaydasının pozulması" adlanan 143-cü maddəsi ilə oxşar cəhətləri çox olsa da, 26 sentyabr 2004-cü ildən qüvvədə olan Türk Cəza Qanununun "Orqan və toxuma ticarəti" adlanan 91-ci maddəsi ilə nisbətən fərqli quruluşa malikdir.

AR CM-də donor qismində istifadə məqsədi ilə insan qanını məcbur etmə və ya aldatma yolu ilə götürmə kimi əməl kriminallaşdırılmır. Əməllərin kriminallaşdırılmasında ədalətlilik prinsipi, bir tərəfdən, ziyan yetirən əməlin bağlı olduğu sosial proseslərin təhlilini, digər tərəfdən, belə əməlin obyektiv xüsusiyyətlərini, əhatənin, sosial qrupların həmrəy olduğu dəyərləri, normaları nəzərə almaqla zərər yetirən əmələ qiymət verməyi tələb edir. Burada ədalətliliyin qneseoloji əsası kimi həqiqət, obyektiv qərar qəbul etməyin, bu və ya başqa şəraiti qiymətləndirməyin zəruri şərti kimi çıxış edir.

Ukrayna Respublikasının CM-də donorluğa məcbur etmə əməli kriminallaşdırılmışdır (144 maddə) [15]. Türk Cəza Qanunun 91-ci maddəsi həyatda olan insanla yanaşı, həm də ölmüş şəxsin orqanlarının və ya toxumalarının qanunsuz götürülməsini də nəzərdə tutmuşdur. TC Qanunun 91-ci maddəsinin 2-ci bəndində deyilir: hüquqa zidd olaraq ölmüş şəxsdən (meyitdən) orqanlar və toxumalar alan şəxs, bir ilədək həbs cəzası (azadlıqdan məhrum edilməklə) ilə cəzalandırılır [11]. Biz Türk Cəza qanununun mövqeyini daha düzgün sayırıq.

Respublikanın qüvvədə olan Cinayət Məcəlləsində cinayətlərin kateqoriyası bölgüsünə əsasən CM-nin 137-ci maddənin qadağa etdiyi əməlin xarakteri və ictimai təhlükəlilik dərəcəsi az ağır cinayətlər kateqoriyasına aid edilmişdir. Belə ki, bu maddənin sanksiyasında azadlıqdan məhrum etmənin maksimum həddi 5 il müəyyən olunub. Cinayət Məcəlləsinin 137-ci maddəsində nəzərdə tutulan cinayətə görə azadlıqdan məhrum etmə növündə cəzanın yuxarı həddi beş ilədək müddətə azadlıqdan məhrum etmə cəzasıdır. Hesab edirik ki, bu cəza cinayətin ictimai təhlükəlilik dərəcəsinə uyğun deyildir. Rusiya Federasiyası CM və Ukrayna CM-də həmin əmələ görə nəzərdə tutulan cəzanın yuxarı həddi AR CM-də həmin əmələ görə nəzərdə tutulan cəza sanksiyasının yuxarı həddi ilə eynidir.Türk Cəza Qanunun 91-ci maddəsində isə insan orqanlarının və ya toxumalarının alqı-satqısı və onların transplantasiyasına görə, cəzanın yuxarı həddi müvafiq bəndlərdən asılı olaraq beş və on beş il müddətinə azadlıqdan məhrum etmə cəzasıdır. 20 oktyabr 2017-ci ildə AR CM-nin əksər maddələrinə əlavə və dəyişikliklər edilmişdir. Lakin həmin maddənin azadlıqdan məhrum etmə növündə cəzanın yuxarı həddinə heç bir dəyişiklik edilməmişdir. İnsan orqanlarının alqı-satqısı və onların transplantasiya məqsədilə götürülməsinə məcburetmə insanın həyatı və sağlamlığı üçün riskli olduğundan, əmələ görə cəzanın ağır olması, bəhs etdiyimiz əməlin xarekterinə və ictimai təhlükəlilik dərəcəsinə görə ağır cinayətlər kateqoriyasına daxil edilməsi və sanksiyada azadlıqdan məhrum etmə cəzasının yuxarı həddinin səkkiz ilədək müddətə qədər artırılmasını məqsədəuyğun hesab edirik.

Yuxarıda qeyd etdiyimiz əsasları rəhbər tutaraq CM-nə 137-ci maddəsinin sanksiyasında və 137.3-cü maddəsinin dispoziyasında dəyişiklik edilməsini və CM-nə 137-1 və 137-2-ci maddələrin əlavə edilməsini təklif edirik:

Maddə 137. İnsan orqanlarının və ya toxumalarının alqı-satqısı və onların transplantasiya məqsədi ilə götürülməsinə məcbur etmə

137.1. İnsan orqanlarının və ya toxumalarının qanunsuz alqı-satqısı –

beş min manatdan səkkiz min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

137.2. Zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə insan orqanlarının və ya toxumalarının transplantasiya məqsədilə götürülməsinə məcbur etmə –

üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

137.3. Eyni əməllər:

bir qrup şəxs tərəfindən; yetkinlik yaşına çatmayan barəsində, təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadın barəsində; zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə və ya onun təqsirkar şəxsdən maddi, xidməti və sair cəhətdən asılı olmasından istifadə etməklə törədildikdə

– beş ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə altı ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır:

Maddə 137-1. Ölmüş insan orqanlarının və ya toxumalarının alqı-satqısı və onların transplantasiya məqsədi ilə götürülməsinə məcbur etmə.

137-1.1. Ölmüş insan orqanlarının və ya toxumalarının qanunsuz alqı-satqısı:

– iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri və ya bir ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

137.2. Tibb işçilərinə, yaxın qohumlarına və digər şəxslərə zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə ölmüş insan orqanlarının və ya toxumalarının transplantasiya məqsədilə götürülməsinə məcbur etmə:

– iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə 137-2. Donorluğa məcburetmə.

137-2.1. İstifadə məqsədi ilə donor qismində insan qanını məcburetmə və ya aldatma yolu ilə götürmə:

– iki ilədək müddətə vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya iki min manatdan dörd min manatadək miqdarda cərimə edilməklə və ya edilməməklə cəzalandırılır.

137-2.2. Eyni əməllər:

137-2.2.1. təqsirkardan maddi cəhətdən asılı olan və ya köməksiz vəziyyətdə olan şəxslər və ya yetkinlik yaşına çatmayanlar barəsində törədildikdə;

137-2.2.2. qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən və ya satış məqsədi ilə törədildikdə:

– dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

## Biblioqrafiya

1. Azərbaycan Respublikasının Konstitusiyası. - Bakı: Hüquq Yayın Evi, 2019. - 116 s.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. - Bakı: Hüquq Yayın Evi, 2018. - 736 s.
3. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası. - Bakı: Digesta, 2012. - 1104 s.
4. Azərbaycan Respublikasının Qan və onun komponentlərinin donorluğu haqqında Qanunu. [İnternet resurs]. URL: http://www.e-qanun.az/framework/3982#_edn1 (müraciət tarixi: 17.02.2022)
5. Azərbaycan Respublikasının Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında Qanunu. [İnternet resurs]. URL: http://www.e-qanun.az/framework/10404 (müraciət tarixi: 17.02.2022)

6. Azərbaycan Respublikasının İnsan orqan və toxumalarının donorluğu və transplantasiya haqqında Qanunu. [İnternet resurs]. URL: http://www.e-qanun.az/framework/46447 (müraciət tarixi: 22.02.2022)

7. Azərbaycan Respublikası Nazirlər Kabinetlərinin Qanın, qan komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsi Qaydasının... Qərarı. [İnternet resurs]. URL: http://www.e-qanun.az/framework/13126 (müraciət tarixi: 22.02.2022)

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 384 nömrəli Qərarına dair İZAH. [Internet resurs]. URL: https://nk.gov.az/az/article/1114/print/ (müraciət tarixi: 22.02.2022)

9. Cinayət Qanunları Külliyyatı. 1920-2000 / Azərbaycan SSR Cinayət Məcəlləsi (1960). - Bakı: Hüquq Yayın Evi, 2014. - 1184 s.

10. Əsədov Ç.D., Əlimirzəyeva Z.X., Hacıyeva P.Ş. Azərbaycanda qanköçürmənin tarixi. - Bakı, 2017 - 288 s.

11. Türk Ceza Kanunu – Mevzuat. [Internet resurs]. URL: www.mevzuat.gov.tr/Mevzuat Metin/1.5.5237.pdf (müraciət tarixi: 04.03.2022)

12. Красняков В.К. Совершенствование донорства крови и ее компонентов в Санкт-Петербурге: дис…канд. мед. наук. [Internet resurs]. URL: https://www.dissercat. com (müraciət tarixi: 11.03.2022)

13. Марченко Д.И. Преступления против жизни. - Ростов-на-Дону, 2004. - 196 с.

14. О донорстве крови и ее компонентов [Internet resurs]. URL: http://pravo.gov.ru › proxy › ips (müraciət tarixi: 17.03.2022)

15. Уголовный кодекс Украины. [Internet resurs]. URL: https://meget.kiev.ua ugolovnie-kodeks (на рус. яз.) (müraciət tarixi: 19.03.2022)

**Aliyeva G.S.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.66.16-28**
**UDC: 34:343.6**

## Donation of blood and its components in the legal aspect

**Abstract**: Blood and its components are one of the most important medical means known since ancient times. In modern times, blood and its components are widely used in many fields of medicine as an invaluable treatment.

It is known that blood donation in Azerbaijan is regulated by the Law on Donation of Blood and Blood Components and Blood Services. This law was signed by the Decree of the President of the Republic of Azerbaijan No. 904-IIQ dated May 3, 2005. This Law regulates the relations related to the development of blood, blood component donation, determines the basis for the organization of the blood service.

In addition, the “State Program on Blood, Blood Component Donation and Development of Blood Service” (2006-2010) was approved by the Resolution of the Cabinet of Ministers of the Republic of Azerbaijan No. 16 of January 18, 2006, “for 2011-2015 , Program of measures on devel-

♦ **Aliyeva Gunay Sahhat -** Researcher of the Department of Criminal Law and Criminal Process of the Institute of Law and Human Rights of the ANAS (Azerbaijan). E-mail: gunay-aliyeva-2019@mail.ru

opment of blood, blood component donation and blood service ”by the Resolution of the Cabinet of Ministers of the Republic of Azerbaijan No. 233 dated December 13, 2010,“ Program of measures on development of blood, blood component donation and blood service for 2016-2020 ”Azerbaijan Approved by the Decision No. 22 of the Cabinet of Ministers of the Republic of Azerbaijan dated January 28, 2016. At the same time, there are many normative documents regulating the activities in the field of blood transfusion. Thus, donation in the Republic of Azerbaijan is developed in accordance with the approved regulations and instructions.

In the research is examined the donation of blood and its components in the leqal aspect. At the same time, using comparative research methods, the legislation and experience of individual countries on blood and blood components donation are analyzed, and the pros and cons of the relevant norms are identified. The research also serves to improve domestic criminal law.

The study made proposals and recommendations on the addition of new articles to the Criminal Code of the Republic of Azerbaijan, as well as amendments and changes to Article 137 of the Criminal Code of the Republic of Azerbaijan and the assessment of the criminal content of some acts. That is, it was proposed to amend the sanction of Article 137 and the disposition of Article 137.3 of the Criminal Code and add Articles 137-1 and 137-2 to the Criminal Code.

**Keywords**: blood donation; blood service; blood components; blood transfusion; recipient; donor's rights; legal aspect; legislation; transplantation; enforced to donor.

## References

1. Constitution of the Republic of Azerbaijan. Baku, Huquq Yayin Evi Publ., 2019, 116 p. (in Azerbaijani).
2. Criminal Code of the Republic of Azerbaijan. Baku, Huquq Yayin Evi Publ., 2018, 736 p. (in Azerbaijani).
3. Commentary to the Criminal Code of the Republic of Azerbaijan. Baku, Digesta Publ., 2012, 1104 p. (in Azerbaijani).
4. Law of the Republic of Azerbaijan on blood and blood components donorship. Available at: http://www.e-qanun.az/framework/3982#_edn1 (accessed: 17.02.2022). (in Azerbaijani).
5. Law of the Republic of Azerbaijan on Blood, Blood Component Donorship and Blood Service. Available at: http://www.e-qanun.az/framework/10404 (accessed: 17.02.2022). (in Azerbaijani).
6. Law of the Republic of Azerbaijan on Donorship and Transplantation of Human Organs and Tissues. Available at: http://www.e-qanun.az/framework/46447 (accessed: 22.02.2022). (in Azerbaijani).
7. Decision of the Cabinet of Ministers of the Republic of Azerbaijan on the Rules of supply, processing, storage, supply and distribution of blood and blood components ... Available at: http://www.e-qanun.az/framework/13126 (accessed: 22.02.2022) (in Azerbaijani).
8. Explanation on the Decision No. 384 of the Cabinet of Ministers of the Republic of Azerbaijan. Available at: https://nk.gov.az/az/article/1114/print/ (müraciət tarixi: 22.02.2022) (in Azerbaijani).

9. Collection of Criminal Laws. 1920-2000 / Criminal Code of the Azerbaijan SSR (1960). Baku, Huquq Yayin Evi Publ., 2014, 1184 p. (in Azerbaijani).

10. Asadov Ch.D., Alimirzayeva Z.Kh., Hajiyeva P.Sh. of blood transfusion in Azerbaijan. Baku, 2017, 288 p. (in Azerbaijani).

11. Türk Ceza Kanunu – Mevzuat. [Internet resurs]. URL: www.mevzuat.gov.tr/Mevzuat Metin/1.5.5237.pdf (accessed: 04.03.2022) (in Turkish).

12. Krasnyakov V.K. *Sovershenstvovanie donorstva krovi i ee komponentov v Sankt-Peterburge* [Improving the donorship of blood and its components in St. Petersburg]. PhD in Medical. Available at: https://www.dissercat.com (accessed: 11.03.2022)

13. Marchenko D.I. *Prestuplenie protiv zhizni* [Crimes against life]. Rostov-on Don, 2004, 196 p.

14. *O donorstve krovi i ee komponentov* [On donorship of blood and its components]. Available at: http://pravo.gov.ru › proxy › ips (accessed: 17.03.2022)

15. Criminal Code of Ukraine. Available at: https://meget.kiev.ua ugolovnie-kodeks (in Russian) (accessed: 19.03.2022).

**Алиева Г.С.** ♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2022.66.16-28**
**УДК: 34:343.6**

## Донорство крови и ее компонентов в юридическом аспекте

**Аннотация**: Кровь и ее компоненты являются одним из важнейших лечебных средств, известных с древних времен. В наше время кровь и ее компоненты широко используются во многих областях медицины в качестве бесценного лечебного средства.

Известно, что донорство крови в Азербайджане регулируется Законом о донорстве крови, компонентов крови и службах крови. Этот закон был подписан Указом Президента Азербайджанской Республики № 904-IIQ от 3 мая 2005 года. Настоящий Закон регулирует отношения, связанные с развитием донорства крови, компонентов крови, определяет основы организации службы крови.

Кроме того, Постановлением Кабинета Министров Азербайджанской Республики от 18 января 2006 года № 16 «Кровь на 2011-2015 годы Программа мероприятий по развитию донорства компонентов крови и службы крови» Постановлением Кабинета Министров Азербайджанской Республики № 233 от 13 декабря 2010 года, а также «Программа мероприятий по развитию компонентов донорства и службы крови на 2016-2020 годы в Азербайджане», утвержденной Постановлением № 22 Кабинета Министров Азербайджанской Республики от 28 января 2016 года. В то же время существует множество нормативных документов, регламентирующих деятельность в области переливания крови. Таким образом, донорство в Азербайджанской Республике развивается в соответствии с утвержденными положениями и инструкциями.

♦ **Алиева Гюнай Саххат кызы** - научный сотрудник отдела «Уголовное право и уголовный процесс» Института права и прав человека НАНА (Азербайджан). E-mail: gunay-aliyeva-2019@mail.ru

В исследовании рассматривается донорство крови и ее компонентов с правовой точки зрения. При этом с помощью сравнительных методов исследования анализируются законодательство и опыт отдельных стран по донорству крови и компонентов крови, выявляются плюсы и минусы соответствующих норм. Исследование также служит совершенствованию отечественного уголовного законодательства.

В ходе исследования были сделаны предложения и рекомендации по дополнению новыми статьями Уголовного кодекса Азербайджанской Республики, а также внесении поправок в статью 137 Уголовного кодекса Азербайджанской Республики об оценке преступного содержания некоторых деяний. То есть предлагается изменить санкцию статьи 137, диспозицию статьи 137.3 УК и добавить в УК статьи 137-1 и 137-2.

**Ключевые слова**: донорство крови; служба крови; компоненты крови; переливание крови; реципиент; права донора; правовой аспект; законодательство; трансплантация; насильственное донорство.

**Библиография**

1. Конституция Азербайджанской Республики. - Баку: Huquq Yayin Evi, 2019. – 116 с. (на азерб. яз.).

2. Уголовный Кодекс Азербайджанской Республики. - Баку: Huquq Yayin Evi, 2018. -736 с. (на азерб. яз.).

3. Комментарий к Уголовному Кодексу Азербайджанской Республики. - Баку: Дигеста, 2012. -1104 с. (на азерб. яз.).

4. Закон Азербайджанской Республики о донорстве крови и компонентов крови. [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/framework/3982#_edn1 (дата обращения: 17.02.2022) (на азерб. яз.).

5. Закон Азербайджанской Республики о крови, донорстве компонентов крови и службе крови. [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/framework/10404 (дата обращения: 17.02.2022) (на азерб. яз.).

6. Закон Азербайджанской Республики о донорстве и трансплантации органов и тканей человека. [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/framework/46447 (дата обращения: 22.02.2022) (на азерб. яз.).

7. Постановление Кабинета Министров Азербайджанской Республики о Правилах поставки, переработки, хранения и распределения крови и компонентов крови... [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/framework/13126 (дата обращения: 22.02.2022) (на азерб.яз.).

8. Разъяснение к Постановлению № 384 Кабинета Министров Азербайджанской Республики. [Электронный ресурс]. Режим доступа: https://nk.gov.az/az/article/1114/print/ (дата обращения: 22.02.2022) (на азерб.яз.).

9. Сборник уголовных законов 1920-2000 / Уголовный Кодекс Азербайджанской ССР (1960 г.). - Баку: Huquq Yayin Evi, 2014. – 1184 с. (на азерб.яз.).

10. Асадов Ч.Д., Алимирзоева З.Х., Гаджиева П.Ш. История переливания крови в Азербайджане. – Баку, 2017. – 288 с. (на азерб.яз.).

11. Türk Ceza Kanunu – Mevzuat. [Электронный ресурс]. Режим доступа: www.mevzuat.gov.tr/Mevzuat Metin/1.5.5237.pdf (дата обращения: 04.03.2022) (на турец. яз.).

12. Красняков В.К. Совершенствование донорства крови и ее компонентов в Санкт-Петербурге: дис…канд. мед. наук. [Электронный ресурс]. Режим доступа: https://www.dissercat.com (дата обращения: 11.03.2022)

13. Марченко Д.И. Преступления против жизни. - Ростов-на-Дону, 2004. - 196 с.

14. О донорстве крови и ее компонентов [Электронный ресурс]. Режим доступа: http://pravo.gov.ru › proxy › ips (дата обращения: 17.03.2022).

15. Уголовный кодекс Украины. [Электронный ресурс]. Режим доступа: https://meget.kiev.ua ugolovnie-kodeks (дата обращения: 19.03.2022) (на рус. яз.).